***Sumqayıtdakı Şəhidlər xiyabanında qalib Azərbaycan əsgərinin şərəfinə ucaldılan heykəlin açılışı olub. Bu münasibətlə düzənlənən ümumşəhər tədbirlərində Sumqayıt, Qubadlı və Zəngilan rayon icra hakimiyyətlərinin rəsmiləri, deputatlar, şəhid valideynləri, eləcə də geniş ictimaiyyət nümayəndələri iştirak ediblər. Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə canlarından keçmiş Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

# Sumqayıtlıların zəfər ovqatı



Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Qəhrəman Polad Həşimovun anası Səmayə Həşimova, Milli Qəhrəman Qorxmaz Eyvazovun həyat yoldaşı Hafizə Eyvazova, Vətən Müharibəsi Qəhrəmanı Anar Şükürovun anası Emma Şükürova, Vətən Müharibəsi Qəhrəmanı Ramiz Cəfərovun anası Mindinura Saqadayeva, Vətən Müharibəsi Qəhrəmanı Sübhan Cəbrayılovun həyat yoldaşı Sevda Cəbrayılova, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun həyat yoldaşı Fatimə İsmayılova və Vətən Müharibəsi Qəhrəmanı Mehrab Niftəliyevin həyat yoldaşı Vüsalə Niftəliyeva abidənin açılışını ediblər. Mərmər abidənin üzərindən ağ örtük götürülüb və gözlər önündə ölümdən qorxmayan məğrur və vətənpərvər bir igidin möhtəşəm obrazı canlanıb.

Tədbirdə 44 günlük Zəfər yürüşünə həsr olunmuş bədii kompozisiya nümayiş olunub. Qeyd edilib ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti öz mübarizliyi ilə qəhrəmanlıq simvoluna çevrilib. Hər bir Vətən övladı igidlik, cəsarət nümunəsi yaradıb, xalqımız qəhrəmanlıq salnaməsi yazıb.

Sonra mərasim iştirakçıları xiyabanda uyuyan şəhidlərin məzarlarını ziyarət edib, önünə tər qərənfillər düzüblər. Qeyd edək ki, Sumqayıtda Şəhidlər xiyabanı 1992-ci ildə salınmışdı. Zəfər Günü ərəfəsində qısa müddətdə xiyaban başdan-başa yenidən qurulub. Burada əzəmətli Azərbaycan bayrağı hündürlüyü 30 metr olan dirəkdə dalğalanır. Ətrafı mərmərlə üzlənən fəvvarə kompleksi, 3 ədəd buta və Ay-ulduz formalı əbədi məşəl kompleksi yaradılıb. Rəmzi Zəfər ağacının budaqlarından şəhidlərin ad və soyadı yazılmış, doğum tarixi və sonsuzluq işarəsi qeyd olunmuş lövhəciklər asılıb. Ərazidə yaşıllıq örtüyü salınıb. İşıqlandırma sistemi müasirləşdirilib. Bütün bunların fonunda daha əzəmətli görünən qalib Azərbaycan əsgərinin abidəsi önündə isə əbədi məşəl alovlanır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***